# Türk poeziyasını zirvəyə qaldıran Nəvai

**Böyük özbək şairi Əlişir Nəvainin (1441-1501) 9 fevral doğum günüdür. 575-ci illiyi qeyd olunan dahi şairin ədəbi irsi həm Özbəkistan, həm də bütövlükdə türk ədəbiyyatı üçün böyük önəm daşıyır.**

Nəvainin poetik irsi çox böyükdür: fars və türk dillərində yazılmış 3150 qəzəl və divanı mövcuddur. Onun lirik şeirlərinin tarixini müəyyənləşdirmək isə çətindir. Belə ki, şairin bəzi həyati məqamları bu gün üçün az məlum olduğuna görə, onların tarixi ardıcıllığını təyin etmək çətinliyi yaranır. "Xazoynul Maoniy" divanını (Məna xəzinəsi) şairin lirik etirafı hesab etmək olar. Burada onun bütün həyəcan və iztirabları ahəngdar çalarlığı ilə seçilir.

Nəvainin əsas vəzifələrindən biri onun türk ədəbi dilinin formalaşmasına xidmət etməsidir. Məhz türkcə şeirləri şairin bədii ifadəliliyini zirvələrə çatdırıb. Nəvainin türkdilli lirikası sayəsində fars dili poeziyanın yeganə dili statusunu itirib. Halbuki XV əsr müəllifləri türk dilinin poeziya üçün çox kobud olduğunu deyirdilər. Əlişir Nəvai bu fikri kökündən dəyişdi. Nəvai bu fikri "Muhakəmət ul luğəteyn" (İki dil haqqında fikirlər) risaləsində təkzib edir. Bu risalədə türk dilinin mədəni və bədii əhəmiyyəti ətraflı şəkildə verilir. Nəvai burada yazırdı ki, türk dilinin zənginliyi dəfələrlə sübut olunub. Türk xalqlarından çıxan istedadlı şairlər öz ədəbi bacarıqlarını fars dilində nümayiş etdirməməlidirlər. Hətta hər iki dildə yaxşı yazmağı bacarsalar belə, öz ana dillərinə üstünlük verməlidirlər.

Nəvai bu risalədə 100 felin şərhini verir ki, bu fellərdən böyük əksəriyyəti bu gün də türk dillərində istifadə olunur. Nəvai türk dilindəki çoxmənalı sözlərin, sinonimlərdən gətirdiyi misallarla bu dilin farscadan üstünlüyü göstərirdi. Nəvai Türk dilinin bir məcazlar, cinaslar, qafiyələr və fellər dili olduğunu,səs və məna



incəlikləriylə çatdırılan qüdrətli ifadə imkanlarının fars dilindən üstün olduğunu bilir, bunu sübut edirdi.

Qeyd edək ki, Əlişir Nəvai 16-sı mənzum,16-sı mənsur olmaqla bir-birindən dəyərli 32 əsər yazıb. Çoxunun əlyazma nüsxələri Azərbaycan, İran, Türkiyə, Rusiya, İngiltərə kitabxanalarında saxlanılır. Bu əsərlərin ən məşhurları "Mühakəmət-ül Lüğəteyn","Məcalisün-Nəfais" adlı əsərləriylə ,beş məsnəvidən ibarət olan "Xəmsə"si və bütün şerlərini topladığı "Divan"lardır. "Xəmsə"sində "Fərhad və Şirin","Leyli və Məcnun" kimi mənzum romanları, Makedoniyalı İskəndərin həyatından bəhs edən "Səddi-İskəndəri",sasani hökmdarı Bəhram Gurun həyatından bəhs edən "Səbəy-Səyyarə" adlı tarixi əsərləri,əxlaq və təsəvvüfə dair fikirlərini əks etdirir.

Divanlarında isə uşaqlığından etibarən yazdığı bütün şerləri toplanıb. Qəzəllər, müxəmməslər, rübailər, müstəzadlar, müfrədlərdən ibarət bu şerlər Orta Asiya Türk dilinin ən gözəl nümunələridir.

**Türk dünyasının ən böyük şairlərindən biri olan Nəvainin şərəfinə Daşkənddən başqa, Bakıda, Moskvada, Tokioda da heykəl ucaldılıb. Əsərləri müxtəlif dillərə tərcümə edilib.**

**Şəfiqə ŞƏFA**